*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



AZƏRBAYCAN
SİLAHLI QÜVVƏLƏRİ

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 2 sentyabr 2015-ci il | № 67 (1983) | Qiyməti 25 qəpik

# Vətən uğrunda fədakarlıq əsl qəhrəmanlıqdır

***Vətən müqəddəsdir, Vətən ülvidir. Vətən ana südü qədər şirin, ana nəfəsi kimi doğmadır. Vətəni yaşadan da, şərəfləndirən də onun qəhrəman övladlarıdır. Tarixdə böyük sərkərdə kimi ad qazanmış Napoleonun bir yaxşı sözü var: "Savaşdıqları zaman ölənləri qəhrəman edən onların ölümləri deyil, ölümlərinin səbəbləridir". Doğrudan da, insanı qəhrəmanlıq zirvəsinə ucaldan onun köksündə yuva salan tükənməz, bitməz Vətən sevgisidir.***

Ali Baş Komandan İlham ƏLİYEV:

*Qoy düşmənlər bilsin ki, Azərbaycan xalqının tarixində Mübariz kimi qəhrəmanlar olub və yenə də olacaqdır. Bu gün bizim ordumuzda Mübariz İbrahimov kimi qəhrəmanlıq göstərməyə qadir olan oğullar yüzlərlə, minlərlədir.*



Mən bilirəm ki, odlu qılınc olmur. Lakin həyatını xalqının azadlığı uğrunda mübarizəyə həsr etmiş bir igidin qılıncı düşmənin başına enəndə od-alov kimi parlayır. Cavanşir, Babək kimi qəhrəmanlarımızın qılıncı daim düşmən başında parlayıb. Xalqımızın qəhrəmanlıq tarixinə həkk olunan belə igidlərin davamçıları bu gün də var. Bu cümləni işlətdiyim məqamda Azərbaycan Ordusunun əfsanəvi döyüşçülərindən biri, Milli Qəhrəman Mübariz İbrahimovun dəfn mərasimində iştirak edən zaman dövlət başçımız İlham Əliyevin çıxışında səslənən bir fikri yadıma düşür: "Qoy düşmənlər bilsin ki, Azərbaycan xalqının tarixində Mübariz kimi qəhrəmanlar olub və yenə də olacaqdır. Bu gün bizim ordumuzda Mübariz İbrahimov kimi qəhrəmanlıq göstərməyə qadir olan oğullar yüzlərlə, minlərlədir".

İkinci Dünya müharibəsinin tarixinə diqqət yetirəndə bu savaşda qəhrəmanlıq göstərmiş neçə min azərbaycanlı yada düşür. Həzi Aslanov, İsrafil Məmmədov, Hüseynbala Əliyev kimi oğullar müharibədə faşizmə qan uddураraq tarix yazdılar - qəhrəmanlıq tarixi. Onların qəhrəmanlığından illər, on illər ötür, amma adları xalqın yaddaşında qalır. Qədirbilən Azərbaycan xalqı daim qəhrəman övladlarının xatirəsini əziz tutur, onları heç zaman unutmur, yaddan çıxarmır. İkinci Dünya müharibəsinin odundan-alovundan çıxmış azərbycanlılardan ibarət milli diviziyaların döyüşçüləri, sözün həqiqi mənasında, qəhrəmanlıq yazmışdılar. Ümumiyyətlə, tarixin bütün dövrlərində xalqımızın mərd övladları doğma yurdun təəssübünü çəkiblər, elimizə, yurdumuza başucalığı gətiriblər. Bəzən bir qəhrəmana görə bir el-obanı bütün dünya tanıyıb. Əfsanəvi kəşfiyyatçı, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə, Şəkidən olan Əhmədiyyə Cəbrayılov kimi igidlərimiz tək Azərbaycanda deyil, bir çox ölkələrdə dillər əzbəridir. Yadımdadır ki, bir dəfə Fransanın dövlət başçısı ölkəmizə səfəri zamanı Əhmədiyyə Cəbrayılovu ziyarət etmişdi və bildirmişdi ki, artıq fransalılar onu özlərinin milli qəhrəmanı kimi qəbul ediblər.

Əslində qəhrəmanlıq ondan irəli gəlir ki, son damla qanına kimi "uf" demədən, "Mən öldüm, təki Vətən yaşasın", - deyə Vətən uğrunda canını da əsirgəməyəsən, qanlar axıdıb qan tökəsən. Bax onda öz varlığınla hiss edərsən ki, nədir qəhrəmanlıq, nədir vətənpərvərlik. Ötən əsrin 90-cı illərində istər dövlət müstəqilliyimizin, istərsə də Vətənimizin ərazi bütövlüyü uğrunda nə qədər mətin oğul və qızlarımız mübarizəyə qalxmışdılar. Mən şəhid tanıyıram ki, qürbətdə cah-cəlal içərisində yaşayırdı, amma Vətənimizin başı üzərini qara buludlar alarkən, öz ürəyinin hökmü ilə Azərbaycana döndü və doğulub boya-başa çatdığı məmləkət uğrunda son nəfəsinədək döyüşdü. Bax budur, qəhrəmanlıq, budur, Vətən uğrunda fədakarlıq. Qarabağ uğrunda döyüşlərdə və 20 Yanvar faciəsində şəhid olan yüzlərlə, minlərlə oğul və qızımız əsl vətənpərvərlik nümayiş etdirərək ölümlə üzüzə gəliblər, amma mətin dayanıblar, ölümün gözünə dik baxıblar və Vətən uğrunda ölməzliyə qovuşublar. Doğru deyiblər ki, torpaq, əgər uğrunda ölən varsa, Vətəndir. Bəli, torpaq o zaman Vətəndir ki, biz ona mənəvi dünyamızla, canımızla, qanımızla, varlığımızla bağlı olaq.

Bəzən tarixi faciələrimizi, məsələn, 1990-cı ilin 20 Yanvar hadisələrini düşünəndə mənə elə gəlir ki, bu faciələrdən üzülmək lazım deyil. Əksinə, 20 Yanvar bir qəhrəmanlıq zirvəsidir, tankdan, topdan qorxub çəkinməyən soydaşlarımız Vətənimizin müstəqilliyinin qorunması yolunda tarix yazıblar. Bu da bir qəhrəmanlıq tarixidir. Ümummilli liderimiz Heydər Əliyev vurğulayırdı ki, 20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. "20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək uğrunda göstərdiyi qəhrəmanlıq nümunəsidir. Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram", - deyən ulu öndər həmin vaxt həyatını təhlükə qarşısında qoyaraq Azərbaycana vəhşicəsinə hərbi təcavüz edən və günahsız insanları qətlə yetirən Sovet imperiyasının əsl mahiyyətini dünya ictimaiyyətinə açıb göstərmişdi. Bu da taleyini xalqına həsr etmiş bir rəhbərin qəhrəmanlığı idi.

Azərbaycanda 20 Yanvar hadisələri baş verəndə hamı yaxşı bilirdi ki, bu, imperiyanın azadlıqsevər xalqa qarşı qətliamıdır, yəni bununla xalqın, millətin gözünü qorxutmaq və mübarizə əzmini qırmaq məqsədini güdürdülər. Amma nə soyuq qış gecəsi, nə də imperiyanın tankı-topu millətin azadlıq mücadiləsini qıra bilmədi. Xalq öz müstəqilliyi yolunda qurban verməkdən çəkinmədi, əksinə, şəhid olan oğul və qızlarını paytaxtımızın ən uca zirvəsində dəfn etdi. Həmin vaxtdan neçə illər ötməsinə baxmayaraq, burada ziyarətə gələnlərin ardı-arası kəsilmir, xalq müstəqillik mücahidlərini daim yad edir, onların xatirəsini əziz tutur. Bəlkə də 20 Yanvar hadisələrinə kimi tanınmayan bir nəfər illərdir ki, azadlıq aşiqi kimi milyonların ürəyindədir.

Şəhidlik, mən deyərdim ki, elə qəhrəmanlığın ən uca zirvəsidir. Vətənimiz uğrunda şəhid olan neçə döyüşçünün ata-anası, həyat yoldaşı ilə söhbətləşəndə "Təki Vətənimizin başı sağ olsun" kəlməsi qəlbimi qürurlandırıb. Heç yadımdan çıxmır, bir şəhid döyüşçünün həyat yoldaşı mənə demişdi ki, "ömürgün yoldaşımın şəhidliyi ilə fəxr edirəm. Bəlkə o da sıradan yol qəzasının təsadüfi qurbanı olardı, amma nə yaxşı ki, Vətən yolunda şəhidlik zirvəsinə yüksələrək əbədiyyətə qovuşmaq onun qisməti olub". Sonradan öyrəndim ki, Müdafiə Nazirliyinin rəhbərliyi, şəxsən general-polkovnik Zakir Həsənovun qayğısı sayəsində tez bir zamanda bu şəhid ailəsi tam təmirli mənzillə təmin edilib. Bir neçə il öncə Azərbaycan Ordusunun şəhid zabiti Əhməd Abdullayevin haqqında yazı hazırlayanda da belə bir söhbətin şahidi olmuşdum. İki balaca oğlunu sinəsinə sıxan gənc ana dövlətin yüksək qayğısından razılıqla söhbət açıb "And içirəm ki, hər iki övladımı gələcəyin zabitləri kimi böyüdüb tərbiyə edəcəm" demişdi. Sonralar xəbər tutdum ki, Sumqayıtda həmin ailənin də mənzil problemi qısa bir vaxtda həllini tapıb. Bax budur, dövlətin öz şəhidinə, öz qəhrəman döyüşçüsünə verdiyi dəyər, hörmət. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev şəhid ailələrinə, müharibə əlillərinə diqqət və qayğısını əsirgəmir. Həmişə bəyan edir ki, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş insanlar ən uca hörmətə və ehtirama layiqdirlər.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində xalqın qəhrəman övladlarının rolu böyükdür, həmçinin, dövlət və xalq tərəfindən qəhrəmanlara göstərilən diqqət və qayğı da cəmiyyətdə rəğbətlə qarşılanır və hər kəs bu qayğıdan ruhlanır. Məsələn, müasir dövrümüzün qəhrəmanlarından olan Mübariz İbrahimovun şəhid olmasından illər ötməsinə baxmayaraq, hər il anım günündə nə qədər insan onun ikinci Şəhidlər xiyabanındakı məzarını ziyarət edir. Məktəblilərin tətilində bir qrup yeniyetmənin onun məzarını ziyarət etdiyini görəndə fərəhdən gözlərim yaşardı. Hələ adi günlərdən biri idi. Onların arasından sarışın bir oğlan mənə yaxınlaşıb nə desə yaxşıdır: "Əmi, mən də əsgərlikdə Mübariz kimi qəhrəman olacam". Bəli, belə yeniyetmələrin sayı nəinki yüzlərlə, minlərlədir. Onlar nəsil-nəsil ordumuzun sıralarında xidmət edərək qəhrəmanlıq məktəbini keçirlər. Və belə qəhrəman nəsil böyüdən Vətən məğlubedilməzdir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Əsgər atası

***Bu adda gürcü bədii filmi də var. Ad oxşarlığıdı, ad eyniliyi deyil...***

***Hər ifadə könül xoşluğu ola bilmir...***

***Mahiyyəti Vətənlə, torpaqla bağlı olan ifadələr eşidənin ürəyini tellədirir. Əsgər atası ifadəsi kimi...***

80-ci illərdə kəndimizdə çağırışçılar çağırış gününü əlamətdar bir hadisə kimi gözləyərdilər. Soruşana "Az qalıb..." - deyərdilər, həm də elə deyərdilər ki, sanki saatların ömrünü qısaltmağı düşünərdilər. Çağırışçıların üzünü gizli bir təbəssüm bürüyərdi. Eyniylə bu təbəssümü onun atasının, anasının da üzündən hiss etmək olardı. O illərdə də hərbi xidmət müqəddəs bir əməl kimi ev-ev dolaşardı: "Filankəsin oğlu əsgər gedir. Gözaydınlığı vermək lazımdı...". Oğlu əsgər olan analar da, oğlu yeniyetmə olan analar da belə deyərdilər...

Atalar qürrələnərdi: "Oğlum əsgər gedir!.."...

Bu sevincin işığına el yığışardı!..

Aylar sonrası analar da, atalar da "Oğlum əsgərdi!" kəlmələrini o qədər şirinliklə, o qədər həssaslıqla, o qədər razılıqla deyərdilər ki! Bu qürurun boyu kəndimizdən min kilometrlərlə uzaqlardan da görünərdi. El-obada oğlu əsgər olana sayğını sezmək, görmək çətin deyildi. Xosur oğlu Hümbət əsgərliyə getməyənə "A bala, niyə əsgərliyə getmirsən? Xəstəliyin, azarınmı var?" deyərdi. Bu kəlmələri eşidən xəcalətindən əriyərdi. Qanuni möhlət hüququ olanlar da əriyərdi...

O illərdən illər keçib. Zaman dəyişib. Camaatın çağırışçıya, hərbi xidmətə münasibəti dəyişməyib. Dəyişə də biməz. Çağırış gününü "barmaqhesabı" sayanlar da var, o günün işığına tələsənlər də, o günün içindən keçib Vətənə oğul olmağa təşnə olanlar da...

Əli Məmmədov ali təhsilli mədəniyyət işçisidi. 1993-cü ildə o da könüllü olaraq hərbi xidmətə gedib. 2010-cu ilə kimi Zəngilanda, Murovdağda xidmət eləyib. Mayor hərbi rütbəsi ilə tərxis olunub. Oğlu İbrahimə çağırış kağızı gələndə, sözün həqiqi mənasında, fərəhi yerə-göyə sığmırdı: "Bu iki ildə elə bilirdim nəyimisə itirmişəm. Adını bilmədiyim itiyimi mənə İbrahim qaytarır. Elə bil dünya mənimdi. Mən əsgər atasıyam, a Faxralı, əsgər atasıyam!.."...

Bir il sonra Əli müəllimin ikinci oğlu Çingizə çağırış kağızı gəldi. Eyni sevinci onda da yaşadı...

Əli kimi atalar minlərlədi. Oğlunu dayanmalı olduğu sırada dayanan görmək istəyir atalar. Bu sıranın nizamiliyini yaşam fəlsəfəsi bilirlər, sabahlarımıza bu sıradan baxırlar.

Atalar əsgər oğullarıyla qürrələnir; ata duyğuları hiss edilməsi çətin olan narahatlıqlar yaratsa da qürrələnir. Cəmiyyətin ehtiram ünvanlarından biri də məhz bu qürrə yiyəsi olmalıdı, şübhəsiz.

Bir dəfə sözarası mənim yanımda Əli müəllimdən soruşdular: "Rütbən nədi?". Əli müəllim gülümsünüb, "Əsgər atası", - dedi. O qədər sevgilərlə, o qədər həssassızlıqla dedi ki, soruşan onu çaşqınlıqla süzdü. Yəni belə hərbi rütbə yoxdu axı. Əli müəllimin nə demək istədiyini anlayınca gülümsündü: "Mənə bu rütbə bir ildən sonra veriləcək", - dedi.

Məmləkətimizdə əsgər atası ifadəsi qürurla işlədilir. Oğlunu Vətən üçün böyütdüklərini, müqəddəs borcu yerinə yetirəcəklərini deyən atalar da əsl vətəndaşdılar. Vətən oğlu böyütdüklərinə görə...

Bəhram Qasımovu Ağdərə döyüşlərindən tanıyıram. Cəsarətli döyüşçü idi. Yaralansa da, tərxis olunmamışdı. Bir gün "Sabah bizə gəl", - dedi. "Xeyir iş var". Ağlıma gələn bu oldu ki, ya ad günüdü, ya da qızının şirinliyidi. Getdim. Belə deyilmiş. Oğlunu sabah hərbi xidmətə yola salacaqmış. Necə sevinirdi! "Məni əsgər kimi tanıyırdın, indi əsgər atası oluram! Həmin andı var gücümlə qışqırmaq istəyirəm: "Bizim eləyə bilmədiklərimizi oğullarımız edəcək! Oğullarımız edəcək!"...

Qurbanı sevinən gördüm: "Oğlum mənim xidmət elədiyim hərbi hissədə xidmət eləyir. Bir vaxtlar düşmənə mənim avtomatımın səsiylə barmaq qıcayan o səngərlər indi oğlumun ayaq səslərinə sarı boylanır..."...

Əli də, Bəhram da, Qurban da mənim könlümü tellendirən kəlmələr deyirlər: Döyüş başlasa, oğlumla bir səngərdən döyüşəcəm. Oğlum yanında atasını görüncə daha qətiyyətlə vuruşacaq. Bu qətiyyətin təntənəsi qələbəmiz olacaq!

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi məktəblərə və liseylərə qəbul olan laçınlı gənclərlə görüş olub

Laçın Rayon İcra Hakimiyyətinin "Hər ailədən orduya bir zabit" təşəbbüsü real nəticələr verir. Ali hərbi məktəblərdə və liseylərdə təhsil almaq istəyən laçınlı gənclərin sayı ilbəil artır.

AZƏRTAC xəbər verir ki, Bakı şəhərinin Yeni Günəşli qəsəbəsində ali hərbi məktəblərə və hərbi liseylərə qəbul olan laçınlı gənclərlə görüş keçirilib. Hərbi məktəblərə qəbul olan gənclərin, onların valideynlərinin və rayon ziyalılarının iştirak etdiyi görüşdə laçınlı gənclərin ali hərbi məktəblərə və hərbi liseylərə qəbul olunması istiqamətində görülən işlər və qarşıda duran məsələlər müzakirə olunub. Bildirilib ki, builki qəbul imtahanlarında hərbi məktəblərə sənəd vermiş laçınlı məzunlardan 8 nəfəri müxtəlif ali hərbi məktəblərə qəbul olub.

Qeyd edilib ki, ərazisi Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Laçın rayonunun yeniyetmə və gəncləri vətənpərvərlik ruhunda tərbiyə olunur. Yetişməkdə olan nəslin doğma torpağı unutmaması, onlarda milli mənlik şüurunun inkişaf etdirilməsi, vətənpərvərlik hisslərinin artırılması daim diqqət mərkəzində saxlanılır.

Tədbirdə çıxış edənlər "Hər ailədən orduya bir zabit" təşəbbüsünü dəstəklədiklərini və bunun üçün bütün imkanlardan istifadə edəcəklərini bildiriblər.

**AZƏRTAC**

AZƏRBAYCAN ORDUSU

Döyüş hazırlığı

# “Özünə arxayın olmayan döyüşçü deyil”

***Belə bir məşhur deyim var ki, hər şeyi kadrlar, yəni işini mükəmməl bilən mütəxəssislər həll edir. "N" hərbi hissəsində ezamiyyətdə olarkən bu deyim bir daha yadıma düşdü.***

Biz hərbi hissəyə gələndə bölmələrin şəxsi heyəti parkda döyüş hazırlığı planına uyğun dərslərdə iştirak edirdi. Tankçılar sıra hazırlığından sonra atəş və texniki hazırlıq üzrə məşğələlərə cəlb edilmişdilər.

Hərbi hissədə bacarıqlı, nümunəvi hərbi qulluqçulardan söhbət düşəndə adı ilk çəkilənlərdən biri də tank komandiri baş gizir Paşa Mehdiyevdir. 20 ilə yaxındır ki, gizir Azərbaycan Silahlı Qüvvələrində xidmət edir və tank bölməsinin uğurları üçün əlindən gələni əsirgəmir.

- Baş gizir Mehdiyev həmişə tank komandiri kimi öz üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirib, - zabit Babək Bayramov bizimlə söhbətində dedi. - O, bir mütəxəssis kimi böyük təcrübə qazanıb, öz bilik və bacarığını kollektivin digər üzvlərilə bölüşməyə hər an hazırdır. O, nümunəvi xidmətilə təkcə komandiri olduğu tank heyətinə deyil, həm də bölmənin digər döyüşçülərinə örnəkdir. Bu səbəbdən təcrübəli tank komandiri zabit və əsgərlərin arasında hörmət qazanıb. Baş gizir Mehdiyev döyüş hazırlığı dərslərində, taktiki təlimlərdə də həmişə fərqlənməyi bacarıb.

Birinci yarımilliyin yekunlarına yaxın taborun döyüş atışlı taktiki təlimi keçirilirdi. Şəxsi heyət çöl çıxışında döyüş vəziyyətinə maksimum yaxınlaşdırılmış şəraitdə fəaliyyət göstərdi. Təlimin planına uyğun tankçılar həm də gecə atışlarında iştirak etdi. Yuxarı komandanlığın bilavasitə rəhbərliyilə təlim meydanında şəxsi heyət öz bilik və bacarığını nümayiş etdirdi və bölmənin qarşısında duran tapşırıqları müvəffəqiyyətlə yerinə yetirdi.

Məlum olduğu kimi, hər təlimdən sonra fərqlənmiş hərbi qulluqçular komandanlıq tərəfindən mükafatlandırılırlar. Bu dəfə də belə oldu. Bölüyün bütün şəxsi heyətinə təlimdə nümunəvi fəaliyyətinə görə komandir təşəkkür elan etdi. Mükafatlandırılanlar arasında tank komandiri baş gizir Paşa Mehdiyev də vardı.

- Son təlimlərdə qarşıya qoyulmuş döyüş tapşırıqlarını bizim heyət bacarıqla yerinə yetirdi, - baş gizir Mehdiyev bildirdi. - Gecə atışları zamanı komandiri olduğum heyət gecə görmə cihazlarından istifadə etməklə hədəfləri məhv etməyi bacardı. Bizim tanklar modernləşdirilib və günün müxtəlif vaxtlarında düşmənin hədəflərini məhv etməyə qadirdir. Bunu təlimlər vaxtı bir daha sübut etdik. Komandanlıq bizim fəaliyyətimizi müsbət dəyərləndirdi.

Təbii ki, hər bir işin bəhrəsi gərgin zəhmət nəticəsində qazanılır və hərbi xidmətdə də belədir. İl ərzində keçirilən döyüş və ixtisas hazırlığı məşğələləri, döyüş atışları, çöl dərsləri, təlimlər hərbi peşəni mənimsəməyə, bilik və vərdişləri möhkəmləndirməyə imkan verir. Bir danılmaz həqiqət də var ki, kollektivdə sağlam və işgüzar mühit mövcud olduqda nailiyyətlər qaçılmazdır.



- Baş gizir Mehdiyev bölməmizə başucalığı gətirən hərbi qulluqçulardandır, - baş leytenant Ziya Novruzov deyir. - İndiyə qədər o, səhlənkarlığa, səhv hərəkətə yol verməyib. Həmişə hərbi hissədə onun adı yalnız yaxşıların sırasında çəkilib. Təcrübəli tankçı olan yerdə, bilirik ki, qanqaraldan hadisə baş verməz. Uzun xidmət illərinin təcrübəsi ona imkan verir ki, manevrlər zamanı döyüş texnikasını məharətlə idarə etsin və qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirsin.



Baş gizir Paşa Mehdiyev 1978-ci ildə Füzuli rayonunun Dövlətyarlı kəndində dünyaya gəlib. 18 ildir ki, tank komandiri kimi xidmət edir. Öz peşəsinə mükəmməl yiyələnib.

Paşa əsgər kimi də doğma ordumuzda xidmət edib. Bu zaman onun qəlbində hərbi xidmətə rəğbət yaranıb. Əsgərliyini başa vurduqdan sonra yenə Vətəni müdafiə etməyi özünə peşə seçib.

Baş gizir Mehdiyev evlidir, iki övlad - bir oğlan, bir qız böyüdür. İnanırıq ki, Vətənin keşiyində dayanan döyüşçünün övladları da Azərbaycanımıza layiqli vətəndaşlar olacaqlar.

- Tankçı döyüş zamanı gərək ilk növbədə özünə inamlı olsun, - baş gizir Mehdiyev deyir. - Özünə arxayın olmayan döyüşçü deyil. İnam isə ixtiyarındakı silahı və ya texnikanı mükəmməl öyrəndikdə, ondan cəld və dəqiq istifadə etməyi bacardıqda qazanılır. Hərbi hissəmizdə döyüşçülərin yaxşı tankçı kimi yetişməsi üçün lazımi şərait var. Praktik məşğələlərdə texnikanın idarə olunması, atışların keçirilməsi döyüşlərdə vacib olan vərdişlərin əldə edilməsinə imkan yaradır.

Şəxsi heyətdə ruh yüksəkliyi var. Döyüş texnikasının hamısı saz vəziyyətdədir. İstənilən anda səxsi heyət tam tərkibdə səfər marşı ilə istənilən məntəqəyə çıxmağa və qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirməyə hazırdır.

Təbii ki, müasir texnika hələ döyüş hazırlığının yüksək olmasına dəlalət etmir. Texnikanı idarə edən insandır, döyüşçüdür. Bu baxımdan şəxsi heyətin peşəkarlığı və döyüş ruhu hərbi əməliyyatlarda həlledici önəm daşıyır. Baş gizir Paşa Mehdiyev kimi bacarıqlı mütəxəssislər olan yerdə isə uğur qazanılması təbiidir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

Ordu və cəmiyyət

# “Şəhid dostumun adını oğluma vermişəm”

***Müdafiə Nazirliyi və Səbail rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə təşkil edilən "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsinin bağlanış mərasimində iştirak etmək üçün bu günlərdə Qusar rayonunda yerləşən "N" hərbi hissəsində oldum. Belə bir layihənin həyata keçirilməsində məqsəd yeniyetmə gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsidir. On illərdi ərazimizin 20 faizi erməni silahlıları tərəfindən işğal edilib. Belə bir vaxtda böyüməkdə olan gənc nəslin hərbi vətənpərvəlik ruhunda tərbiyə edilməsi cəmiyyətimizdə aktual olan məsələdir. Layihəyə dəstək olanlar sırasında hökumət, qeyri-hökumət təşkilatları, Ombudsman aparatı, sahibkarlar da vardı.***



Yay istirahət düşərgəsinin rəhbəri Faiq Qurbanov söhbətimizdə bildirdi ki, məktəblilərin təlim-tərbiyəsi ilə təcrübəli müəllimlər məşğul olurlar. Bununla yanaşı, "Gənc Heydərçilər"in Azərbaycanın şimal bölgəsindəki tarixi və mədəni abidələrinə, Qubadakı Soyqırım Memorial Abidə Kompleksinə gəzintiləri təşkil edilib. Yeniyetmə gənclər "Şahdağ" qış-yay olimpiya idman kompleksində də olublar. Düşərgənin rəhbəri daha sonra bildirdi ki, bu gün "Gənc Heydərçilər"dən birinin valideyni düşərgədə istirahət edən məktəblilərə "Qayı bulaq" restoranında şam süfrəsi təşkil edib. Orada tonqal yandırılıb konsert təşkil olunub və yeniyetmələr milli rəqsləri ifa ediblər.

Belə bir xeyriyyəçini tanımaq bizim üçün maraqlı idi. Ziyafət yerinə gələndə restoran sahibi ilə birlikdə bizi qarşılayan sadə bir geyimli, ilk baxışdan mənə doğma olan orta yaşlı bir xeyriyyəçi ilə rastlaşdım. Onu yaxından tanımaq üçün bir qədər keçmişi xatırlamalı oldum. Hacı Seymur Bərzur oğlu Ağayev: keçmiş döyüşçü, ehtiyatda olan zabit. Əslən Tərtər rayonunun Əksipara kəndindəndir. O zaman erməni daşnakları yenicə baş qaldıranda sərhədyanı rayonlarda özünümüdafiə batalyonları yaradılmışdı. Tərtərlilər də özünümüdafiə batalyonu yaratdılar və doğma yerlərdə düşmənə ayaq açmağa imkan vermədilər. Elə ilk könüllülər sırasında Seymur da yer aldı. O, döyüşçülər arasında ən gənc könüllü idi. Ermənilərlə həmsərhəd olan doğma el-obasını qanı, canı bahasına qorumaq üçün döyüşlərə atılmışdı. Azərbaycanın Milli Qəhrəmanı Vəzir Orucovla düşmənə qarşı çiyin-çiyinə döyüşürdü. O zaman Tərtərin müdafiəsində dayanan mərd oğullar təpədən-dırnağadək silahlanmış düşmənə güclü müqavimət göstərirdilər. Məhz buna görə də Tərtər igid döyüşçülər tərəfindən qətiyyətlə müdafiə olundu.

Hacı Seymur Ağayevlə söhbətimiz zamanı ən ağır döyüşlərdən söz açır, 1993-cü ilin dekabrın sonunda Madagiz ətrafında gedən qanlı-qadalı günləri belə xatırlayır:

- Ermənilər bu istiqamətdə bütün gücünü toplayaraq müdafiə olunurdular. Batalyonlarımız bir neçə yerdən eyni vaxtda hücuma keçdi. Biz o döyüşdə çoxlu itki verdik. Orada şəhid olan döyüşçülərdən biri də qonşu Düyərli kəndindən olan cəsur əsgər, yaxın dostum Şamil İsmayıl oğlu Əhmədov idi. Şamil əvvəlki döyüşlərdə də yaralanmışdı. Yarası tam sağalmamış yenidən döyüşə qayıtmışdı. Onun ölümü mənə son dərəcə ağır təsir bağışladı. Şamilin həyatda yoxluğunu unuda bilmərəm. Olduqca qorxmaz, dostluqda sadiq bir döyüşçü idi. Orada çoxlu döyüşçülərimiz düşmənin minasına düşdü. Qarşı tərəf də az itki vermədi.

Hacı Seymur həmin döyüşlərdə fərqlənənlərə gəlincə, hazırda hərbi xidmətdə olan polkovnik Abakər Mirzəyevin adını xüsusiylə qeyd etdi. Pənah Məmmədovun, Adil Mərdanovun və başqa silahdaşlarının döyüş yolundan söz açan həmsöhbətim daha kövrək bir məqama da toxundu: oğlu dünyaya gələndə şəhid dostu Şamilin adını qoyub. Hacı Seymur deyir ki, indi ən böyük arzum oğlum Şamili də şəhid Şamil Əhmədov kimi vətənpərvər, dövlətini, xalqını sevən, ona sadiq qalacaq bir övlad kimi böyütməkdir.

On beş yaşlı Şamilin də atası kimi el-obasını canından artıq sevən döyüşçü olacağına əminik. Çünki Şamilin indidən hərbə, hərbi yönümlü təlim və məşqlərə yüksək marağı da bundan xəbər verir. Bir də ki, elimizin bir yaxşı deyimi var: ot kökü üstə bitər. Bəli, hər şey ailədən, düşdüyün və böyüdüyün mühitdən asılıdır. Döyüşçü övladının da Vətənə dəyər verəcəyi şübhəsizdi.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***30 avqust 2015-ci il***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 112 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan, İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı və Qızılhacılı kəndlərində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Hacıalılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Qızıloba, Ağdam rayonunun Yusifcanlı, Şuraabad, Mərzili, Qaraqaşlı, Kəngərli, Novruzlu, Sarıcalı, Cəvahirli, Çıraqlı, Şıxlar, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Qorqan, Qaraxanbəyli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***31 avqust 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 158 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Yarımca, Ağdam rayonunun Yusifcanlı, Şuraabad, Mərzili, Qaraqaşlı, Kəngərli, Novruzlu, Sarıcalı, Cəvahirli, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Əbdürrəhmanlı, Qorqan, Qaraxanbəyli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***1 sentyabr 2015-ci il***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan, qumbaraatanlardan, iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 118 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Dovex, Barekamavan, Voskevan kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Kəmərli, Qaymaqlı və Quşçu Ayrım kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi və Ağbulaq kəndlərində, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə məruz qalıb.

Goranboy rayonunun Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Göyarx, Yarımca, Qızıloba, Ağdam rayonunun Yusifcanlı, Şuraabad, Mərzili, Qaraqaşlı, Kəngərli, Nəmirli, Novruzlu, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Aşağı Seyidəhmədli, Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirdə iştirak edəcək

Sentyabrın 2-dən 2016-cı ilin yanvarın 29-dək Varşava şəhərində (Polşa) ingilis dili kursu keçiriləcək.

Tədbirdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcək.

Ön xətdən reportaj

# Bu gün də mövqelərimiz qətiyyətlə qorunur

***Cəbhədə demək olar ki, hər gün atəşkəs pozulur. Düşmən bəd niyyətindən əl çəkmək istəmir. Təcavüzkar Ermənistan hər vəchlə çalışır ki, işğal etdiyi əraziləri nəzarətində saxlasın. Amma bizim bir dövlət, millət olaraq düşmənin bu niyyəti ilə qəti razılaşmaq fikrimiz yoxdur. Doğrudur, həmişə münaqişənin sülh yolu ilə həllinə tərəfdar olmuşuq və bu, bizim sülhsevər niyyətimizdir. Əks halda dövlətimizin başçısı cənab İlham Əliyevin dediyi kimi, əgər Ermənistanla məlum münaqişə sülh yolu ilə həll olunmayacaqsa, o zaman beynəlxalq aləmdə tanınan ərazi bütövlüyümüzü bərpa etmək üçün başqa vasitələrdən də istifadə etməyə məcbur olacağıq.***

İllər, on illər ötür, hələ də iki ölkə arasında davam edən münaqişə bitmək bilmir. Təmas xəttində artan gərginlik hər gün davam etməkdədir. Ordumuzun rəhbərliyi müntəzəm döyüş postlarında olur, əsgərlərin döyüşə hazırlığını yerində yoxlayır və təxribatlara əl atan düşmənə layiqli cavab verilməsinə qəti tapşırıqlar verir.

Hərbi hissənin qərargahında düşmənin daha çox atəşinə məruz qalan posta getmək istəyimi bildirdim. Cavabında "olduqca gözəl təklifdi, bunun üçün heç bir problem yoxdur", - deyə zabit Qafqaz Həmidov gecə-gündüz döyüş növbəsində dayanan əsgərlərin də könüllərinin xoş olacağını bildirdi. Əlavə etdi ki, düşmənə hər zaman qətiyyətlə cavab verən igid oğullarımızla yerində görüşüb söhbət etmək, onların ürək sözlərini eşitmək yerinə düşərdi. Bu məqsədlə vaxt itirmədən döyüş növbəsində olan əsgərlərin yanına yola düşdük. Mövqelərə gedən yolun hər bəndi, bərəsi mənə tanış, doğma idi. Çünki bir vaxtlar özüm də bu səngərlərdə həm əsgər, həm də zabit kimi xidmət aparmışam. Düşmən elə o vaxt da mövqelərimizi atəşə tuturdu. Bizim layiqli cavabımızdan sonra susur, fürsət düşən kimi təxribatlarına davam edirdi. İntensiv olaraq atəşkəsin pozulduğu bu yerdə ermənilərin niyyəti bizə yaxşı məlum idi.

...Çayı keçib üzü yuxarı qalxırıq. Enli, dərin və təmiz səngərə daxil oluruq. Bir qədər gedəndən sonra baş leytenant Orxan Babayev hərbi qaydada bizi qarşılayır. Həm neçə illərdən sonra yenidən bu yerlərə gəlməyimə, həm də postlarda cəsur oğullarımızla tanış olmaqdan çox sevinirəm. Ancaq çox istəyirəm ki, irəlidəki erməni tapdağı altında qalan yurd yerlərimizi azad görüm, ayağım yenidən o yerlərə dəysin. Həmin səngərləri, həmin mövqelər və düşməni də əvvəlki məsafədə görəndə daxilən bir narahatlıq keçirirəm. Həmin vaxtdan bu günə qədər burada dəyişilən yalnız əsgərlər üçün yaradılan müasir şərait, bir də əsgərlərin özləridir. Bəli, düşünürəm ki, millətimin neçə-neçə qeyrətli, mərd oğulu bu yerləri qanı, canı bahasına qətiyyətlə qoruyub. Bu gün də həmin mövqelər igid oğullarımızın cəsarəti, mərdliyi sayəsində qorunur.





Yaxşı xatırlayıram. Düz on beş ilin söhbətidir. Söz vaxtına çəkər, - deyiblər. Elə isti yay günü idi. Postlar arasında məsafə çox olduğundan gecə-gündüz patrul xidməti təşkil etmişdik. Bizim postdan bir qədər aralıdan güllə səsi eşitdim. Bunu aydınlaşdırmaq istəyirdim ki, atışma düşdü. Tez taqımı döyüşə hazır vəziyyətə gətirdim və özümü döyüş gedən yerə çatdırdım. İki nəfər döyüşçümüz biri Qubadan, o biri isə Saaltlıdan idi. Patrul xidmətini apararkən iki postun arasındakı minalanmış sahədə qurumuş otların səsinə boylananda iki nəfərin səngərə yaxınlaşdığını görüb. Onlardan parol soruşulanda həmin naməlum silahlılar "yox" olublar. Ayıq döyüşçülərimiz dərhal həmin yeri atəşə tutublar. Bundan sonra düşmən də bir neçə istiqamətdən mövqelərimizi atəşə məruz qoyur. Ən başlıcası isə iki əsgərimizin sayıqlığı düşmənin təxribat əməlinin qarşısını alır.

İndi də burada xidmət aparan əsgər və zabitlərlə söhbətdən öyrənirəm ki, düşmən yenə də öz xislətindən əl çəkmir. Onların bir məqsədi var: işğal etdikləri torpaqlarımızı nəyin bahasına olursa-olsun, nəzarətdə saxlamaq.

Baş leytenant Orxan Babayev zabit kimi hərbi xidmətə elə cəbhə bölgəsində başlayıb. İlk gündən qarşısına məqsəd qoyub ki, hərbi bilikləri tabeliyində olan əsgərlərə aşılasın. Qısa bir vaxtda döyüş növbətçiliyinin təşkilində uğurlar əldə edib. Bu yaxınlarda Müdafiə nazirinin əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medala layiq görülüb.

Bəli, əsl komandirə xas xüsusiyyətlər onda formalaşdığı üçün tabeliyində olan əsgərlər də bundan qürur duyur və qarşılarına qoyulan hərbi tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Əsgərlərdən Emin Qladkov, Amid Həsənov, Dəyanət Səfərov, Alqayıt Hüseynov, Mahmud Mamatov və başqaları ilə söhbətdən öyrənirəm ki, onlar əsl döyüşçüyə lazım olan vərdişlərə yiyələniblər.

Düşmənlə çox yaxın bir məsafədə xidmət aparmağın nə qədər ağır və məsuliyyətli olduğunu yaxşı bilirik. Sevinirəm ki, ön cəbhədə xidmət keçən hər bir əsgər istənilən an düşmənin qarşısını almağa hazırdır.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# “TurAz Qartalı - 2015” təlimlərinə döyüş helikopterləri də qoşulub

***Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin "TurAz Qartalı - 2015" birgə taktiki təlimləri bu gün də davam edib.***

Təlimlərdə aviasiya qüvvələrinə məxsus Mi-35 döyüş, Mi-17 və Sikorski UH-60 döyüş-nəqliyyat, eləcə də Cougar AS532 axtarış-xilasetmə helikopterləri iştirak edir.

Təlimlərin ssenarisinə əsasən, helikopterlər uçuşlar keçirməklə Hava Hücumundan Müdafiə bölmələrinə qarşı radiomaneələrin tətbiqi və helikopterlərin bort müdafiə komplekslərinin yoxlanılması üzrə verilən tapşırıqları icra ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**



# Azərbaycan və Türkiyə hərbi təyyarələrinin təlim uçuşları davam edir



***"TurAz Qartalı - 2015" birgə taktiki təlimlərində Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin döyüş təyyarələrinin uçuşları davam edir.***

Təlimlərdə iki ölkənin Hərbi Hava Qüvvələri müştərək əməliyyatların planlaşdırılaraq keçirilməsi üzrə qarşılıqlı fəaliyyət və döyüş uzlaşması imkanlarını yoxlamaq, hava məkanındakı uçuş zonalarını, ərazidəki qalxma-enmə zolaqlarını, marşrut üzrə aeronaviqasiya vəziyyətini öyrənmək, uçuş, enmə və ehtiyat aerodromlarındakı şəraitlə tanış olmaq məqsədilə uçuşlar həyata keçiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Biz sizdən öyrəndik qəhrəmanlığı...

***Bu mövzuda danışmaq, yazmaq qürurverici və bir o qədər də çətindir. Şəhidlərimizi, Vətənimizin azadlığı və ərazi bütövlüyü yolunda qorxmadan canlarından keçən döyüşçülərimizi anlatmağa cümlələr bəs etməz. Axı şəhidlik uca zirvədir. Ana Vətən uğrunda canlarını qurban verib bu zirvəyə yüksələn soydaşlarımız bizim aramızda olmasa da, ürəklərimizdə hər zaman yaşayırlar. Onlar sadəcə dünyalarını dəyişir, ruhları isə hər zaman bizimlədir.***

İnsan dünyaya göz açdıqda onu bir həyat yolu gözləyir. Cəmiyyətdə bir şəxsiyyət kimi formalaşan insanın yaxşı təhsil almaq, iş-güc sahibi olmaq, ailə həyatı qurmaq və s. kimi seçimləri olur. Bir sözlə, insan öz zəhmətindən, çalışqanlığından, təhsilindən asılı olaraq özünə bir məqsəd, hədəf seçir və həyatda yer tutmaq üçün mübarizə aparır. Bu mübarizədə insan öz seçimi və istəyi ilə hərəkət edir, üzləşdiyi problemləri həll edir. Lakin insanın arzu və istəklərindən asılı olmayaraq baş verən, çarəsi olmayan bir təbii proses var ki, o da insanların həyatlarını başa vurub dünyalarını dəyişmələridir. Ölüm nə qədər haqdırsa, yaşamaq bir o qədər şirindir. Gündəlik həyatımızda baş verən yol qəzalarında, cinayət hadisələrində və intihar hallarında nə qədər insan dünyasını dəyişir. Bu cür hadisələrin çoxu insanların öz günahı, cahilliyi üzündən baş verir və nəticədə dağılmış ailələrin, gözü yaşlı övladların sayı artır. Lakin ölüm nə qədər ağrılı olsa da, ölümün bir addımlığında olduqlarını bilərək geydikləri formanı öz kəfənləri hesab edən hərbi qulluqçularımız var ki, onlar Vətən, torpaq, millət üçün düşmən gülləsi qarşısında dayanıb yurdumuzu qoruyanlardır. Hər an düşmən gülləsindən açılan atəş onların həyatına son qoya bilər. Buna baxmayaraq döyüşçülərimiz gözlərini belə qırpmadan torpaqlarımızın keşiyində dayanmaqdan çəkinmirlər. Onların tək amalı ümummilli liderimiz Heydər Əliyevin "Vətənini, torpağını, dövlətini, öz müstəqil Azərbaycanını qorumaq öz ata-anasını qorumaq deməkdir, evini qorumaq deməkdir" kəlamını üstün tutaraq Vətənimizin bütövlüyü uğrunda ölümün ən uca zirvəsi olan şəhidlik məqamına yüksəlməkdir. Şəhidlik elə bir zirvədir ki, bu zirvəyə adları yazılmış hər qəhrəmanımızla həm xalqımız, həm də ailə üzvləri, yaxınları fəxr hissi duyur. Bu gün neçə ailə tanıyıram ki, şəhid ailəsi olmaqdan fərəhləndiklərini deyirlər. Bəli, öz övladlarının, yaxınlarının ölümü ilə fəxr etmək nə qədər təəccüblü olsa da, bir o qədər də qürurverici haldır, çünki onların övladları şəhidlik zirvəsinə ucalıb və adlarını tarixə qızıl hərflərlə yazdırıblar. Artıq beləleri bütün xalqın qürur duyduğu bir qəhrəman olacaq və ürəklərdə hər zaman yaşayacaqlar.

Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalanların xatirəsini daim yüksək tutmaq, onları gəncliyə nümunə göstərmək hər kəsin vətəndaşlıq borcudur. Müasir yeniyetmə və gənclərimiz Vətənimizi sevib, onun uğrunda canından keçən, Xocalı soyqrımı, Qanlı Yanvar hadisələri zamanı mərdliklə, qorxmadan mərmilərin, topların qarşısında sinə gərən şəhidlərimizi heç vaxt unutmur, onlarla fəxr edirlər. Əslində qısa, lakin şərəfli ömür sahibi olan şəhidləri daim özümüzə örnək bilməli və haqdan gələn bir səslə deməliyik: - Biz sizdən öyrəndik qəhrəmanlığı!

**Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu"**

*Vətənpərvərlik*

*Döyüş hazırlığı*

# “Əsas məqsəd şəxsi heyətin yüksək hazırlığına nail olmaqdır”

***Addım-addım məşğələ keçən əsgərlərə yaxınlaşdıqca onların səslərini daha aydın eşidirdik. Əsgərlər verilən əmrə uyğun olaraq tankəleyhinə idarə olunan raket kompleksini "döyüş" vəziyyətinə gətirərək atışa hazırlayırdılar. Hər kəs öz üzərinə düşən vəzifəni yüksək peşəkarlıqla, bacarıqla, səhvə yol vermədən icra etməyə çalışırdı.***

Məşğələ keçən əsgərlərin yanına çatanda bizi burada taqım komandiri Mübariz Süleymanov qarşılayıb keçdikləri dərs və məşğələlərdən söz açdı. Bildirdi ki, bu gün Vətən torpaqlarını erməni işğalçılarından qorumaq bizim əsas vəzifəmizdir. Biz zabitlər xidmətdə ilk addımları atan gənc əsgərlərə hərbi bilikləri, silahların taktiki-texniki xüsusiyyətlərini həvəslə öyrədirik. Məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışırıq. Məqsədimizə çatmaq üçün bütün tədris vasitələrindən yetərincə bəhrələnirik. Həm nəzəri, həm də praktik məşğələlərdə başlıca məqsədimiz hərbi bilikləri şəxsi heyətə mükəmməl şəkildə aşılamaqdır. Keçirdiyimiz bugünkü sınaq məşğələsi bir daha göstərdi ki, əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Şəxsi heyət tankəleyhinə idarə olunan raket kompleksini tələb olunan vaxt çərçivəsində "döyüş" və "səfər" vəziyyətinə gətirən zaman heç bir səhvə yol vermədilər. Heyət üzvlərinin hər biri üzərinə düşən vəzifəni peşəkarlıqla yerinə yetirir. Əsgərlərimizin belə hazırlıqlı olması bir zabit kimi məni çox sevindirir. Əlbəttə, bu gün təlimdə təcrübə toplayan əsgər sabah döyüşdə qələbə qazanacaq.



Fürsət tapıb təlimdə fərqlənən əsgərlərdən İslam Abdullayevlə, Nasih Udulov və başqaları ilə söhbət etdim. Vətənə əsgər olmaqdan qürur duyan bu oğullar torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanacaqlarını bildirdilər.

Təlim meydanından, əsgərlərdən sevinc hissləri ilə ayrıldıq. Çünki Azərbaycan əsgərini qüdrətli, güclü və yüksək hazırlıqlı gördük.

**Mayor Vahid MƏHƏRRƏMOV, "Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ-ın F-22 "Raptor" qırıcıları Avropaya gətirilib



Almaniyanın qərbində yerləşən "Şpanqdalem" hərbi bazasına ABŞ Hərbi-Hava Qüvvələrinə məxsus F-22 "Raptor" qırıcıları gətirilib. APA-nın "gazeta.ru"-ya istinadən verdiyi xəbərə görə, hərbi təyyarələrlə birgə Almaniyaya ABŞ Hərbi-Hava Qüvvələrinin 60 hərbçisi də gəlib.

Məlumata əsasən, hərbi təyyarələr təlim və NATO-ya üzv ölkələrin təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədi ilə göndərilib.

Bundan əvvəl ABŞ Hərbi-Hava Qüvvələri naziri Debora Li Ceyms bəyan etmişdi ki, Rusiyadan gələn təhlükəni nəzərə alaraq, ABŞ Avropada beşinci nəsil F-22 "Raptor" qırıcı təyyarələri yerləşdirməyi planlaşdırır.

## Türkiyə koalisiyanın tərkibində İŞİD qüvvələrinə ilk zərbələrini endirib



Türkiyə ABŞ-ın rəhbərliyi altında koalisiyanın tərkibində İŞİD qüvvələrinə qarşı vuruşmağa razılıq verib. APA-nın xəbərinə görə, bu barədə Türkiyə XİN-in açıqlamasında bildirilib.

"Bizim qırıcılarımız ötən gecə beynəlxalq koalisiyaya qoşularaq "İslam dövləti"nin Suriyadakı mövqelərinə zərbələr endirib", - deyə bəyanatda qeyd edilib.

AZƏRTAC BBC-yə istinadla xəbər verir ki, İncirlik ərazisindən istifadəyə icazə verildikdən sonra koalisiya qüvvələrinin İŞİD-ə zərbələri intensivləşib.

## Liviya sahillərində miqrantları daşıyan gəmi batıb



Avqustun 30-da miqrantları daşıyan gəminin Liviya sahillərində batması nəticəsində ən azı 7 nəfər həyatını itirib.

AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, əldə edilən məlumatlara əsasən, həlak olan 7 miqrantın cəsədi Əl-Xums şəhəri yaxınlığında aşkar edilib. Gəmidə ümumilikdə neçə nəfərin olduğu barədə hələlik məlumat verilmir.

Qeyd edək ki, bu ilin 8 ayı ərzində Avropaya yollanan 300 mindən çox miqrantdan 2500-ü həlak olub.

## Maliyyə sahəsində biometrik texnologiyaların tətbiqi genişlənir



Biometrik texnologiyalar inamla maliyyə sahəsinə nüfuz edir. Ekspertlərin sözlərinə görə, biometrik texnologiyalar ödəniş əməliyyatlarını fırıldaqçılıqdan etibarlı qorumaqla əlavə mühafizə səviyyəsi təqdim edir və məhz bunun sayəsində onlar dünyada məşhurlaşırlar.

AZƏRTAC "Payspacemagazine" saytına istinadla xəbər verir ki, "Tractica" şirkətinin "Maliyyə əlavələri üçün biometriya" tədqiqatına əsasən, barmaq izlərini, gözün qüzehli qişasını tanıyan texnologiyaların quraşdırıldığı bankomatlar getdikcə dünyanın müxtəlif ölkələrində çoxalır. Mobil bankçılıq isə biometrik identifikasiya həllərini daha çox dəstəkləməyə başlayıb.

Hesabata görə, 2020-ci ilədək mobil ticarətdə transaksiyaların 60 faizi (müxtəlif qiymətləndirməyə görə, 126 milyard əməliyyat) biometriya vasitəsilə avtorizə ediləcək.

## Qasırğa ABŞ-da 370 min adamı işıqsız qoyub



ABŞ-ın Vaşinqton ştatının Sietl şəhərində iki nəfər qasırğanın qurbanı olub, 370 mindən artıq insan isə işıqsız qalıb.

AZƏRTAC "gazeta.ru"ya istinadla xəbər verir ki, hər iki nəfər - kişi və qadın qasırğanın aşırdığı ağacın altında qalaraq ölüb.

Meteoroloqların məlumatına görə, küləyin sürəti saatda 128 kilometrə çatıb. Qasırğa elektrik xətlərini zədələyib. Yerli hakimiyyət ərazidəki asma körpüdə nəqliyyatın hərəkətini müvəqqəti olaraq dayandırıb.

## İsveçrədə dünyanın ən uzun dəmir yolu tunelinin tikintisi başa çatıb



İsveçrədə dünyanın ən uzun və dərin dəmir yolu tunelinin texniki təchizatı başa çatıb. Qotard tunelinin uzunluğu 57 kilometrdir və bəzi sahələri təqribən 2,3 kilometr uzunluğunda dağ süxurlarının altından keçir.

AZƏRTAC "newsland.ru" saytına istinadla xəbər verir ki, əvvəlki rekordun sahibi Yaponiyanın Seykan tuneli Qotarddan təqribən 3 kilometr qısadır.

"Alp Transit Gotthard AG" tikinti şirkətindən bildiriblər ki, bu tunel İsveçrə dəmir yollarının ən təhlükəsiz sahəsi olacaq. İlk sərnişin daşımaları 2016-ci ilin iyun ayına planlaşdırılıb, müntəzəm daşımalar isə dekabrda başlayacaq.

## Erməni soydaşını azərbaycanlı sayaraq öldürüb



Ermənistanın Qazaxla sərhəddə yerləşən Lələkənd (Tsaxkavan) kəndində bir erməni o birini azərbaycanlı sayaraq öldürüb.

ANS PRESS-in məlumatına görə, Ermənistanın Məhkəmə Departamentinin mətbuat xidməti yanvarın 4-də baş vermiş hadisə barədə məlumat verib.

İstintaqın ilkin rəyinə görə, Alik adlı Tsaxkavan kənd sakini axşam saat 10 radələrində yol kənarında naməlum adam görüb. Əslində o, kəndin sakini - 49 yaşlı Viktor olub. Alik onunla danışmaq istəyib, amma Viktor ona cavab verməyib.

Alikin dediyinə görə, naməlum adam ona anlamadığı dildə cavab verib. Alik qərara gəlib ki, qarşısındakı adam Azərbaycan vətəndaşıdır. Ona görə də əlindəki ov tüfəngi ilə Viktoru vuraraq öldürüb.

**Hazırladı: Əbülfət QASIMOV**

*Təlim*

# “Uğurlarımız hələ qarşıdadır”



***İrimiqyaslı təlimdə iştirak edən bölmələri gəzə-gəzə artilleriya batareyasının yerləşdiyi mövqeyə çatdıq. Təlimin qaydalarına uyğun yer qazılmış, zirehli texnika tələb olunan qaydalara uyğun olaraq yerləşdirilmişdi. Döyüş maşını ərazinin təbiətinə uyğun olaraq maskalanmışdı. Uzaqdan bu ərazidə texnika olduğunu sezmək mümkün deyildi.***

Şəxsi heyət təlimin qaydalarına uyğun olaraq hərəkətlər edir, qurğunu "döyüş" və "səfər" vəziyyətinə gətirirdilər. Hər kəs üzərinə düşən vəzifəni yerinə yetirəndə səhvə yol verməməyə çalışırdı.

Şəxsi heyətə yaxınlaşarkən bizi qarşılayan leytenant Əli Əlizadə bildirdi: "Əsgərlərimiz təlimdə fəal iştirak edirlər. Qarşıya qoyulan bütün tapşırıqları yüksək peşəkarlıqla, bacarıqla yerinə yetirməyə çalışırlar. Xidmətimizə məsuliyyətlə yanaşdığımıza görə qarşıya qoyulan vəzifələri yüksək səviyyədə icra edirik. Komandanlıq xidmətimizdən razıdır. Əsgərlərimiz peşəkar olduqlarından hədəfləri dəqiq vururlar. Təcrübə və səriştəmiz gündən-günə artır. Biz belə irimiqyaslı təlimlərdə bir neçə dəfə iştirak etmişik. Hər dəfə də yaxşı nəticə göstərmişik. Həmişə olduğu kimi, yenə də təlimə böyük inamla gəlmişik. Əminəm ki, bu dəfə də əsgərlərimiz hədəfləri vaxtında və dəqiq vuraraq ürəkaçan uğurlar qazanacaqlar. Yaxşı bilirk ki, təlimdə çəkilən əziyyət öz bəhrəsini döyüşdə verir. Belə gərgin təlimlər döyüş hazırlığının artırılması deməkdir".

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kiçik çavuş Samir Orucov, əsgərlərdən Rəşad Mehdiyev, Emin Qəmbərov, Əli Səfərov və başqaları ilə də tanış olub söhbət etdim. Onlar iştirakçısı olduqları irimiqyaslı təlimdən ürək dolusu danışdılar. Bildirdilər ki, təlimlərdə fəal iştirak edərək hədəfləri dəqiq vuracaq, üzərlərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gələcəklər.

Leytenant Əli Əlizadənin əmrləri eşidilir. Şəxsi heyət "Qrad" qurğusunu "səfər" və "döyüş" vəziyyətinə gətirirlər. Tuşlayıcı hədəfləri dəqiq nişan alaraq "Atəş" əmrini gözləyir. Hər bir əsgər üzərinə düşən tapşırıq və vəzifələri yüksək peşəkarlıqla yerinə yetirməyə çalışır. Təlim öz axarı ilə davam edir. Biz isə qarşıdakı mövqelərə gedirik...

**Mayor Vahid MƏHƏRRƏMOV, "Azərbaycan Ordusu"**

# İstehkamçılar ən məsuliyyətli vəzifəni yerinə yetirirlər

***"N" hərbi hissəsində ezamiyyətdə olarkən mühəndis-istehkam bölüyünün əsgər və zabitləri ilə görüşmək imkanımız oldu. Bölüyün qarşısında baş leytenant Məhəmməd Qələndarlı bir qrup əsgərə dərs keçirdi.***

Əvvəlcə hərbi mühəndisliyin tarixindən danışan zabit bildirdi ki, mühəndis qoşunları, Silahlı Qüvvələrin yaranmasından sonra, onların inkişaf prosesində hərbi mühəndis tədbirlərinin aparılmasına olan ehtiyacdan yaranmışdır. Aparılan müharibələrdə qədim Çin, Mesopotamiya, Yunan ordularında mühəndis işlərinin görülməsi üçün əvvəllər adi insanların, əhalinin, qulların əməyindən istifadə edilirdisə də, daha sonra gələcəkdə "istehkamçılar" adlanacaq xüsusi hazırlanmış dəstələr tətbiq edilməyə başladı. Tarixçilərin verdiyi məlumatlara əsasən, eramızdan çox əvvəl Assuriya ordusunda yollar salan, körpülər quran, düşərgələr qurub qazıntılar aparan bölmələr vardı və onlar "yerqazan dəstələr" adlanırdı. Orta əsrlərdə isə qala divarlarını uçurmaq üçün, divarların təməli qazılaraq torpağı çıxarılırdı. Bu sadə və effektli olduğu qədər, çox zəhmət tələb edən üsullardan idi. Barıtın kəşfindən sonra dağıntıların aparılması daha da sadələşdi. Törədilən dağıntılar zamanı minanın harda, nə zaman partlayacağı müdafiə olunanlar tərəfindən müəyyən edilə bilmirdi. Sonra gizli və qəfil partlayan minalar meydana gəldi və tədricən bütün ordularda müxtəlif adlar altında mühəndis-istehkamçı qüvvələr formalaşmağa başladı.

- Mühəndis qoşunları Silahlı Qüvvələrin xüsusi qoşunlarına aiddir. Azərbaycan Ordusunun güclü mühəndis-istehkam bölmələri mövcuddur. Onlar Silahlı Qüvvələrin hissə, birləşmə və birliklərin döyüş fəaliyyətinin mühəndis təminatı üçün, həmçinin, düşmənə mina və digər partlayış vasitələrilə zərər vermək məqsədi daşıyır. Onu da qeyd edim ki, xüsusiyyətlərinə görə ümumqoşun döyüşünün mühəndis təminatının müxtəlif tapşırıqlarını yerinə yetirmək baxımından mühəndis qoşunları müxtəlif birləşmələrdən, hissələrdən və bölmələrdən ibarətdir, - dedi zabit M.Qələndarlı.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Asim Məmmədbəyov və Elxan Şahnazarov minaların basdırılma üsulunu göstərdilər. Sonra isə şərti olaraq düşmən tərəfindən basdırılmış minanın aşkarlanması və məhv edilməsi qaydaları nümayiş olundu.



Sonda təcrübəli istehkamçılar gələcəyin əsgərlərini maraqlandıran suallara cavab verdilər və bildirdilər ki, müharibə zamanı onlar ən önəmli vəzifəni, ən məsuliyyətli tapşırığı yerinə yetirirlər...

**Leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu"**

# İdman mübarizəsi şəraitində

## Silahlı Qüvvələrin hərbi beşnövçülük birinciliyi keçirilib

***Dünyada pentatlon kimi tanınan hərbi beşnövçülük yetərincə kütləvilik qazanıb. Hər il bu növ üzrə Silahlı Qüvvələrimizdə birinciliyin keçirilməsi bunu aydın göstərir. Döyüşçülər üçün yetərincə vacib keyfiyyətlər - çeviklik, sərrastlıq, dözümlülük, maneələri aşma vərdişləri aşılayan hərbi beşnövçülük birinciliyi Silahlı Qüvvələrimizdə 1999-cu ildən, yəni artıq 17 ildir ki, keçirilir.***



Silahlı Qüvvələrin bir neçə gün davam etmiş hərbi beşnövçülük üzrə birinciliyi başa çatıb.

Avqustun 22-də start götürən yarışlara beş gün sonra, yəni ayın 27-də yekun vuruldu. Silahlı Qüvvələrin ən çətin birinciliklərindən olan hərbi beşnövçülükdə, adından da bəlli olduğu kimi, beş idman növündə hərbçi idmançılar mübarizə aparırdılar. Yarışlara ayrı-ayrı hərbi hissələri təmsil edən 11 komanda qatılmışdı. Qaydalara uyğun olaraq komanda birinciliyə altı idmançı gətirmişdi. Yarışların yekununda hər komandanın ən yaxşı nəticə göstərmiş dörd idmançısının nəticələri qeydə alınırdı. Birincilikdə həm də hər idman növü üzrə qaliblər müəyyən edilirdi. Beş idman növü üzrə ən yaxşı nəticə göstərmiş idmançılara mükafatlar nəzərdə tutulmuşdu. Eyni zamanda komanda hesabında birinciliyin qaliblərini müəyyənləşdirmək üçün dörd ən yaxşı nəticə göstərmiş idmançının nəticəsi qeydə alınırdı.

İlk yarış Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində baş tutdu və burada hərbçi idmançılar maneələr zolağını dəf etmə üzrə mübarizəyə qoşuldular. 500 metr uzunluğunda maneələr zolağında onlar 20 maneəni keçməli idilər.

Bu idman növündə birinciliyə ən yaxşı hazırlaşmış Tural Adıgözəlov (Bərdə) hamıdan uğurlu çıxış etməklə birinci oldu. Leytenant Elşən Məmmədov (TTM) ikinci, Əli Bayramov (Şəmkir) isə üçüncü oldu.

Birinciliyin qumbaraatma növü üzrə yarış da Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində keçirildi. Qaydalara görə, idmançılar qumbaraları dəqiq və uzağa atmalı idilər. Gərgin mübarizə şəraitində keçən yarışda Təlim və Tədris Mərkəzinin təmsilçisi leytenant Rüfət Səfərovun göstərdiyi nəticə rəqibləri üçün əlçatmaz oldu. Orxan Əbiyev (Bərdə) birinciliyin gümüş, Bəxtiyar Zamanov (Şəmkir) isə bürünc mükafatını özünə təmin etdi.

Üzgüçülük üzrə yarış Cəmşid Naxçıvanski adına Hərbi Liseyin hovuzunda oldu. İdmançılar suda dörd maneəni dəf etməklə 50 metr məsafəyə üzməli idilər. Bu növdə də TTM-in iki nümayəndəsi hamıdan yaxşı nəticə göstərdi. Leytenant Ramazan Balakişiyev finişə hamıdan tez üzərək birinciliyin qızıl medalını qazandı, leytenant Rüfət Səfərov isə ikinci yeri tutdu. Hərbi Dəniz Qüvvələrinin idmançısı Vasif Əmənov isə mükafatalayiq üçüncü yerə sahib çıxdı.



Birinciliyin atış üzrə yarışı təlim mərkəzlərindən birində keçirildi. Bu hərbi idman növündə 200 metr məsafədə qaldırılmış hədəfə idmançıların hər biri avtomatdan 20 güllə atmalı idi. Onların 10-u yavaş tempdə, yəni 10 dəqiqə ərzində, 10-u isə sürətli tempdə, yəni bir dəqiqə ərzində atılmalı idi.

Atış yarışında Cahid Vahidov (Şəmkir) daha sərrast olmağı bacardı. Leytenant Ramazan Balakişiyev (TTM) ikinci, Vüsal Kamilzadə (HDQ) isə üçüncü nəticə göstərdi.

Birinciliyin ən maraqla gözlənilən idman növlərindən biri kross qaçışı idi. İdmançılar 8 kilometr məsafəyə hamıdan tez çatmaq üçün start xəttinə çıxdılar. Ancaq ən yaxşı nəticəni "şəmkir"li Əli Bayramov göstərərək birinciliyin qızıl medalına sahib çıxdı. Onun komanda yoldaşı Tehran Sadiqi finişə ikinci çatdı. Hərbi Hava Qüvvələrinin idmançısı Murad İmanov isə birinciliyi üçüncü yerdə başa vurdu.

Birinciliyin yekunu da xallar hesablanarkən məlum oldu ki, beş növ üzrə ən yaxşı nəticəni Şəmkir komandasının üzvü Cahid Vahidov göstərib və qızıl medala layiq görülüb. Onun komanda yoldaşı Tural Adıgözəlov ikinci yeri, TTM-in nümayəndəsi Ramazan Balakişiyev isə üçüncü yeri tutub.

Komanda hesabında "Bərdə" idmançıları bütün rəqiblərini qabaqlayaraq birinciliyin qızıl medalını və keçici kuboku qazandılar. Xallara görə yalnız onlardan geri qalan "Şəmkir" komandası gümüş medal aldı. Birinciliyin komanda hesabında sonuncu mükafatı Hərbi Dəniz Qüvvələrinin idmançılarına təqdim edildi.

- Birincilik idman mübarizəsi şəraitində keçdi, - Müdafiə Nazirliyinin fiziki hazırlıq və idman bölməsinin rəisi polkovnik Sadiq Paşayev bizimlə söhbətində bildirdi. - Nəticələr bir daha göstərir ki, hansı komandalar yarışlara daha yaxşı hazırlaşıb. Amma ümumi götürdükdə bütün komandalar və idmançılar yüksək yerlər uğrunda mübarizə aparırdı. Ona görə idmançıların nəticələri arasında fərq o qədər də böyük olmurdu. Yeri gəlmişkən qeyd edim ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi qulluqçuların fiziki hazırlığının artırılmasına yüksək tələblə yanaşır. Yəni Silahlı Qüvvələrimizdə hərbi qulluqçuların fiziki hazırlığı ən yüksək səviyyədə olmalıdır. Xüsusilə kursantların fiziki hazırlığının daha da yüksəldilməsi tələbi qarşıya qoyulub.

Birinciliyin yekununda qalib idmançı və komandalara mükafatlar təqdim edildi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

### Azərbaycanın taekvondoçuları Polşadakı beynəlxalq turnirdə 7 medal qazanıblar




Avqustun 29-30-da Polşanın paytaxtı Varşava şəhərində ənənəvi "Polish open" G1 kateqoriyalı beynəlxalq reytinq turniri keçirilib. Turnirdə böyüklərdən ibarət milli komandamız 5, gənc komandamız isə 20 taekvondoçu ilə təmsil olunur. AZƏRTAC xəbər verir ki, gənclərin yarışında İlham Əliyev (45 kq), İlayda Kardelen Çiftci (46 kq) və Qaşim Maqomedov (51 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Cavid Məmmədov (-45 kq) və Gülsüm Gültəkin (59 kq) turnirdə gümüş medallar qazanıblar. Əliəskər Əliyev (68 kq) isə yarışı bürünc medalla başa vurub.

Böyüklərin yarışında ilk Avropa Oyunlarının qalibi Milad Beigi Hərçəqani (80 kq) qızıl medala yiyələnib.

### "Qarabağ" və "Qəbələ"nin rəqibləri bəlli olub




Azərbaycan komandaları Avropa Liqasının qrup mərhələsində güclü rəqiblərlə mübarizə aparacaq.

Apasport.az saytının məlumatına görə, Monakoda keçirilən mərasimdə iki Azərbaycan komandasının rəqibləri müəyyənləşib.

"Qəbələ" C qrupunda "Borussiya" (Dortmund, Almaniya), PAOK (Yunanıstan), "Krasnodar" (Rusiya) ilə qarşılaşacaq.

Azərbaycan çempionu "Qarabağ" ikinci dəfə mübarizə apardığı qrup mərhələsində "Tottenhem" (İngiltərə), "Anderlext" (Belçika), "Monako" (Fransa) ilə qüvvəsini sınayacaq. Bu komandalar J qrupunda qərarlaşıb.

### Azərbaycan güləşçisi dünya çempionatının qızıl medalını qazanıb



Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərində yeniyetmə güləşçilərin dünya çempionatı başa çatıb.

AZƏRTAC xəbər verir ki, qızların yarışında güləşçimiz Leyla Qurbanova bütün rəqiblərini üstələyərək finala yüksəlib. Həlledici mərhələdə L.Qurbanova Rusiyadan olan rəqibini 6:0 hesablı təmiz qələbə ilə məğlub edərək dünya çempionatının qızıl medalına yiyələnib.

Azərbaycan güləşçiləri Zelfira Ələkbərli və Şəbnəm Əhmədova bürünc medal qazanıblar.

### Azərbaycan cüdoçuları Qazaxıstanda keçirilən dünya çempionatında mübarizəni dayandırıblar




Azərbaycan yığması Astanada keçirilən cüdo üzrə dünya çempionatında medal qazana bilməyib.

Turnirin altıncı günündə tatami üzərinə 100 kiloqramadək çəki dərəcəsində Elxan Məmmədov və Elmar Qasımov çıxıblar. Elmar Qasımov rəqibi hakim tərəfindən xəbərdarlıq aldığı üçün estoniyalı Qriqori Minaskinə qalib gəlib. Lakin idmançımız daha sonra ipponla qırğızıstanlı Çingiz Məmmədova uduzub.

Elxan Məmmədov isə əvvəlcə rumıniyalı Valentin Rada üzərində təmiz qələbə qazanıb. O, hakimdən xəbərdarlıq alan argentinalı Ektor Kamposa da qalib gəlib. E.Məmmədov növbəti görüşdə çex Lukaş Krpalekə ipponla uduzub.

**Hazırladı:**
**Əbülfət QASIMOV**

Döyüşən sətirlər

# Azərbaycan əsgəri

*Fəsillər dəyişir... Boranda, qarda.*
*Əriyər biryolluq çətin də, dar da...*
*Vətənə sevgi var canda, damarda,*
*Keşik çəkir Azərbaycan əsgəri.*

*Sevgisi bəllidi, qəzəbi - şimşək,*
*Qalmadıq, qalmarıq bir əl, bir ətək...*
*Dağına-daşına sinə gərərək,*
*Keşik çəkir Azərbaycan əsgəri.*

*Çətinlik saymayır çətin günləri,*
*Oynayar yerindən şərin məhvəri,*
*Özünə ev bilir soyuq səngəri,*
*Keşik çəkir Azərbaycan əsgəri.*

*Yaşadır qəlbində bir arzu, istək:*
*"Vətən Vətən kimi yaşasın gərək!"*
*Torpağı özünə ana bilərək,*
*Keşik çəkir Azərbaycan əsgəri.*

**Elton GURSEL,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü**

# Əsgərlərin asudə vaxtı səmərəli keçir

***Ön xətdə əsgər və zabitlərimizin asudə vaxtı yükcək səviyyədə təşkil olunub. Bu sahədə işin müəyyən edilmiş qaydalara uyğun qurulması düşmənlə təmas xəttində yerləşən hərbi bölmələrin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının artırılmasına xidmət edir.***



Ön xətdə - səngərdə hərbçilərimizin ictimai-siyasi hazırlığını təmin etmək məqsədilə təşviqat lövhələri asılıb. Burada müasir Azərbaycan Ordusunun banisi ulu öndər Heydər Əliyev irsinin təbliğinə həsr olunan və Prezident, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun cəbhə bölgələrinə səfərlərini əhatə edən mövzularda ictimai-siyasi məşğələlər aparılır. Təsadüfi deyil ki, bu yaxınlarda ezamiyyətdə olduğum cəbhə xəttində ilk diqqətimi çəkən məqamlardan biri də Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin bəyan etdiyi "Bizim torpaqlarımızı işğal edən təkcə Ermənistan deyil. Bizim torpaqlarımızı işğal edən Ermənistanın havadarları, ermənipərəst, islamofob siyasətçilər, anti-Azərbaycan qüvvələrdir. Ermənistan bizim torpaqlarımızı işğal edə bilərmi? Bir həftə ərzində orada daş-daş üstündə qalmaz!" fikirləri həkk olunmuş lövhə oldu. Səngərdə düşmənlə üzbəüz mövqedə əsgərin döyüş ruhunun yüksəldilməsində təsir mexanizmi rolunu oynayan bu lövhənin əhəmiyyəti böyükdür.

Təşviqat guşəsində Milli Qəhrəman Mübariz İbrahimov haqqındakı ətraflı məlumatlar da şəxsi heyətin daim maraq dairəsindədir. Döyüşçü əsgərlərimiz bildirdilər ki, "Azərbaycan Ordusu" qəzetinin hər bir nömrəsini səbirsizliklə gözləyirlər. Qəzetin səhifələrində dərc olunan bütün məqalə və informasiyaları diqqətlə oxuyur, idman xəbərlərini izləyirlər.

Səngər şəraitində yaradılan ideoloji kabinetə daxil olanda "Azərbaycan Ordusu" qəzetinin daimi oxucusu olan əsgərlərlə görüşürəm. Onlar qəzetin yeni nömrəsi ilə tanış olmaq üçün otağa toplaşırlar. Tariyel Tağıyev, Taleh Mikayılov, Nicat Həmzəyev və Ramil Hüseynov səngərdə ayıq-sayıq dayanan Vətənin cəsarətli oğullarıdırlar. Onlar asudə vaxtlarında ictimai-siyasi hazırlıqlarını artırmağı yaddan çıxartmırlar. Tariyel Tağıyev əfsanəvi qəhrəman Mübariz İbrahimovun keçdiyi döyüş və ömür yolunu hər bir gəncə örnək olduğunu qürurla söylədi: "Qarabağ müharibəsində torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüz və ölkəmizin suverenliyi uğrunda erməni quldurlarına qarşı döyüşmüş qəhrəmanlarımız, şəhidlərimiz haqqında və Azərbaycan tarixinə dair əlavə kitablara ehtiyacımız var. Mütaliə etmək üçün bu səpkidə ədəbiyyatların olmasını istərdik".

Asudə vaxtlarında əsgər Nicat Həmzəyev maraqlı televiziya verilişlərini izlədiyini, Taleh Mikayılov isə dama, şahmat idman oyunlarına meyil göstərdiyini və hər bir azərbaycanlı gəncin öz Vətəninin, dövlətinin tarixini, millətinin keçmişini, milli-mənəvi dəyərlərini öyrənməyə borclu olduqlarını və ata-babalarımızın qəhrəmanlıq ənənələrini yaşatmaqdan ötrü çalışdıqlarını söylədilər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Odrusu"**

# Xarici hərbi xronika

### "Ural-M" yük avtomobili

Rusiyanın Müdafiə Nazirliyi Silahlı Qüvvələrin avtomobil texnikasının yenilənməsi üzrə proqramın həyata keçirilməsi işini davam etdirir. Hazırda "Ural-M" yük maşınının yeni variantı üzərində işlər aparılır. Təqdim olunan avtomobilin uzunluğu 9 metr və çəkisi 8.25 ton təşkil edəcək, 13 tona qədər yük daşımağa qadir olacaq. Onun tam təchiz olunmuş halda çəkisi isə 21.3 ton təşkil edəcək. Maşında 285 at gücündə YMZ-536 mühərrikindən istifadə ediləcək. Çəkisindən asılı olmayaraq yük avtomobili saatda 80 kilometr sürətlə hərəkət edə bilər.

### Yeni təyyarələr

Hazırda Rusiyanın Hərbi Hava Qüvvələrində beşinci nəsildən olan "Suxoy" T-50 qırıcısının sınağı həyata keçirilir. T-50 qırıcısı yüksək manevrliyə və yüksək sürətə, təkmilləşmiş bort elektronikasına malikdir. Həm də gözəgörünməzdir. Bundan başqa ordu sıralarına yeni İl-476 hərbi-nəqliyyat təyyarələrinin daxil olması da gözlənilir. Təyyarə müasir naviqasiya kompleksi ilə təchiz olunacaq.

İl-476 qırıcısının bazası əsasında A-100 "uçan radar" - uzaq məsafəli radiolokasiya ilə aşkaretmə təyyarəsi hazırlanacaq. Onlar keçmiş A-50 təyyarələrini əvəz edəcək.

Bundan başqa Rusiya donanması iki strateji sualtı Bulava raketi ilə birlikdə 955 layihəli "Borey" və iki çoxməqsədli "Yasen" layihəli atom qayıqları, üç ədəd dizel sualtı "Varşavanka" qayıqlarını da əldə edəcək.

### Yeni radioelektron mübarizə sistemi

Müasir ordu rabitə vasitəsi, idarəetmə, radioelektron sistemləri olmadan fəaliyyət göstərə bilməz. Onlardan əksəriyyəti xüsusi əhəmiyyət daşıyan radioelektron mübarizə vasitələridir. Son illər Rusiyanın "Radioelektron texnologiyalar" konserninin müəssisələri müxtəlif təyinatlı radioelektron mübarizə vasitələri hazırlayır və bu vasitələr qoşun növlərinin istifadəsinə verilir. Bu yaxınlarda dövlət sifarişi çərçivəsində 60.4 milyard məbləğində müqavilə yerinə yetirilib və onun 17.1 milyardı radioelektron mübarizə sistemlərinin istehsalına ayrılıb. Hərbi idarəyə sifariş əsasında "Krasuxa-4" kompleksi təqdim edilib. Bu sistemlə düşmənin aviasiya radiolokasiya stansiyalarının fəaliyyətinin qarşısını almaq, stasionar obyektləri düşmən aviasiyasının zərbələrindən qorumaq mümkündür. Bu kompleksin tərkibinə tam cihazlandırılmış iki "KamAZ" maşını daxildir. Verilən məlumata görə, kompleksin bütün xüsusiyyətləri məxfi saxlanılır.

Daha bir radioelektron mübarizə kompleksi "Rtut-BM"-dir. Özüyeriyəndir. Qoşunları düşmənin artilleriya zərbələrindən qorumaq üçün nəzərdə tutulub. Müxtəlif təyinatlı cihazlandırma ilə təchiz edilib. Uzun müddət fasiləsiz olaraq işləyir. İndiyə qədər sifarişçiyə 10-20 maşın təqdim edilib.

Daha yeni komplekslərdən biri də "İnfauna" radioelektron mübarizə kompleksidir. Bu kompleks hava-desant qoşun bölmələri üçün nəzərdə tutulub. Onun əsas vəzifələrindən biri düşmənin rabitə kanallarının aşkar edilərək məhv edilməsi, eləcə də radio-idarəolunan partlayıcı qurğulardan müdafiə olunmaqdır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Kapitan Şamilov Eldəniz Rauf oğluna H.Əliyev adına AAHM tərəfindən 2007-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Abbasov Vüqar Əli oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İbrahimov Nicat Surxay oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor müavini**
polkovnik-leytenant
Arif PƏNAHOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 763
Nüsxə 4730